göstərilməsi Qaydası" təsdiq edilməsi ilə bağlı Fərman imzalamışdır. Qayda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (bundan sonra – KOB subyektləri) rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına (bundan sonra – daxili bazar araşdırmaları) dövlət dəstəyinin göstərilməsi qaydasını, forma və şərtlərini müəyyən edir.

Mikro, kiçik və orta sahibkarlığın inkişafı ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) başlıca fəaliyyət istiqamətləri də məhz mikro, kiçik və orta sahibkarlıq (KOB) sahəsində idarəçiliyin müasir tələblərə uyğunlaşdırılmasından, KOB-ların inkişafının dəstəklənməsindən və onların ölkə iqtisadiyyatındakı rolunun artırılmasından ibarətdir. 2020-ci ildə də Agentlik bu istiqamətdə fəaliyyətini davam etdirmişdir.

Ölkədə sahibkarlığın inkişafı sahəsində aparılmış dövlət siyasəti və həyata keçirilmiş işlərin nəticəsi olaraq 2020-ci il ərzində qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı ümumilikdə 13% artaraq 2021-ci ilin yanvarın 1-i tarixinə 1217 972 olub. Onların 13%-i (155435) hüquqi şəxslərin, 87%-i (1062537) fərdi sahibkarların payına düşür. 2020-ci il ərzində fərdi sahibkarlar istisna olmaqla statistik vahidlərin sayı 6,3% artaraq 2021-ci ilin yanvarın 1-i vəziyyətinə 155435 olub ki, onların da 9619-u 2020-ci il ərzində yaradılıb. Qeydiyyata alınmış statistik vahidlərin 127 517-si mikro, 7282-si kiçik, 2916-sı orta, 678-i isə iri sahibkarlıq subyektidir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə edilmişdir.
2. Avropa üçün Kiçik Biznes Aktının tətbiqinin qiymətləndirilməsi. KOB Siyasəti İndeksi: Şərq Tərəfdaşlığı ölkələri 2020.
3. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəsmi internet səhifəsi. https://smb.gov.az.
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. https://www.stat.gov.az.

## İNVESTİSİYA FƏALİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ VƏ İQTİSADİ MƏSƏLƏLƏRİ

*Namazova Aynur Məhəmməd qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

"İnvestisiya"nı müəyyən fiziki şəxslər və ya firmalar tərəfindən müəyyən bir əmlakın alınması kimi, yaxud da fond birjasında qiymətli kağızların alınması kimi dəyərləndirirlər.

Menecerin sorğu kitabında investisiya sahibkarın gəlir və ya faiz əldə etmək məqsədi ilə "uzunmüddətli kapital qoyuluşu şəklində həyata keçirdiyi məsrəflərin

məcmusu" kimi təsbit olunur. Belə tərif kapital qoyuluşlarında iqtisadi məzmun kimi əvvəllər işlədilən "məsrəf" və "resurs" yanaşmalarının birləşdirilməsi kimi təsbit olunur. Məsrəf yanaşması əsas kapitalın pul şəklində dövranının inkarına, istehsalın əsaslandırılmasına söykənir. Resurs yanaşması isə əsas fondların sadə və geniş təkrar istehsalı üçün nəzərdə tutulmuş maliyyə vəsaitlərinə əsaslanır.

Qərb iqtisadi ədəbiyyatında isə qeyd olunur ki, gələcəkdə maksimum səmərəni (o cümlədən sosial səmərəni) qazanmaq üçün investisiyalar sahibkarlıq fəaliyyətinə qoyulan sərvətlər, nemətlərdir.

Qərb iqtisad elminin ayrılmaz tərkib hissəsi olan investisiyalar nəzəriyyəsi mikro və makro mövqelərdən nəzərdən keçirilir. Mikroiqtisadi mövqe baxımından investisiyalar nəzəriyyəsinin əsas hissəsi müəssisələr səviyyəsində investisiya qərarlarının qəbul edilməsidir. Makroiqtisadi mövqe baxımından investisiyalaşdırma prosesi dövlətin investisiya siyasəti, gəlirləri və məşğulluq siyasəti mövqeyindən nəzərdən keçirilir. Qeyd edək ki, makroiqtisadi investisiya nəzəriyyəsinin banisi C.M.Keynsdir.

Bəzi ədəbiyyatlarda "investisiya" və "kapital qoyuluşu" anlayışlarını eyniləşdirirlər. İqtisadi ədəbiyyatlarda investisiyanı kapitalın artımı yaxud cari gəlirin (mənfəətin) alınması məqsədləri ilə əlaqələndirirlər. Baxmayaraq ki, bazar iqtisadiyyatında bu həlledici xarakter daşıyır, eyni zamanda investisiya kapitalın qoyuluşunun istər iqtisadi, istərsə də ondan kənar məqsədi daşıya bilər. Bu zaman investisiya istər istehsal, istərsə də qeyri-istehsal təyinatlı əsas vəsaitlərin təkrar istehsalına qoyulan kapitalı nəzərdə tutur. Eyni zamanda investisiyalar dövriyyə aktivlərinin artımına, müxtəlif maliyyə alətlərinə, eləcə də ayrı-ayrı qeyri-maddi aktivlərin növlərinə qoyula bilər. Kapital qoyuluşu dar mənada işlənib, investisiyanın bir forması kimi təzahür olunur. İnvestisiya pul vəsaitlərinin yatırılması kimi də izah olunur. Bu izahda müəyyən qədər qeyri-dəqiqlik var. Belə ki, kapitalın investisiyalaşdırılması yalnız pulla deyil, eləcə də digər formalarda təzahür olunur ki, bunlara da daşınan-daşınmaz əmlakı, müxtəlif maliyyə alətlərini, qeyri-maddi aktivləri və s. aid etmək olar.

Böyük ensiklopedik lüğətdə investisiyalar aşağıdakı kimi təsbit olunmuşdur: "investisiyalar (almanca İnvestition, latin dilində İnvestio-geyindirirəm)-ölkə daxilində və xaricdə iqtisadiyyata uzunmüddətli kapital qoyuluşudur.

Azərbaycan Respublikasında 1995-ci ildə yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin imzaladığı № 952 "İnvestisiya fəaliyyəti haqqında" Qanununda investisiyaları gəlir əldə edilməsi, müsbət sosial effektlərə nail olunması üçün sahibkarlıq obyektlərinə və digər fəaliyyət növlərinə sərf edilən maliyyə vəsaiti, maddi və intellektual dəyərlər kimi təsbit etmişdilər. Belə vəsaitlərə pul vəsaitləri, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər, digər qiymətli kağızlar, danışan və daşınmaz əmlak və s. aid edilir.

İnvestisiya yatırımlarının vacibliyi müxtəlif faktorlarla: maddi-texniki bazanı yeniləmək, istehsal sahəsini genişləndirmək və yeni fəaliyyət növlərini ərsəyə gətirməklə şərtləndirilə bilər. Bu amillər ayrılıqda müəyyən xüsusiyyətlərə malik olmalarına baxmayaraq, cəmiyyətin artan tələbatını ödəmək üçün vacib amillərdən sayılır.

İnvestisiya qoyuluşlarında maliyyə və qeyri-maliyyə aktivləri forması

arasındakı münasibət məhz faiz dərəcəsindən asılıdır. Əgər yüksək faiz dərəcəsi mövcud olarsa, maliyyə yatırımlarının həcmi artır, əksinə faiz dərəcələri aşağı olarsa isə qeyri-maliyyə aktivlərin artımı baş verir. Yəni, gələcək iqtisadi fəaliyyət nöqteyi-nəzərindən əldə olunan gəlirin səviyyəsi faiz dərəcəsindən yuxarı olarsa, o zaman investisiyaların həcmi artır. Onda investiya yatırımından əldə olunan gəlirin, faiz dərəcəsinə görə əldə olunan gəlirdən artıq olması, əmanət sahiblərini maksimum artıma meyllənməyə sövq edir. Əmanət sahibləri əmanətlərini real kapitala çevirməkdə maraqlı olurlar. Gəlirə nisbətən faiz dərəcəsinin az olması isə kredit götürməyə stimul verir. Hansı ki, götürülən kreditlər investisiyaya istiqamətlənir.

Ingilis iqtisadçısı C.M.Keyns investisiya yatırımının səmərəliliyinin az olmasını tələbin artımına əngəl törədən amillərdən biri kimi qeyd edirdi. Keyns tələbin genişləndirilməsində həlledici rol oynayan investisiyaları aşağıdakı yollarla artırılmasını qeyd edirdi:

- Bankların, kredit təşkliatlarının kredit faizlərini aşağı salmaqla yatırımların son səmərəliliyinin yüksəlməsinin təsiri altında investisiya yatırımları artacaq;
- dövlət xərclərini, yəni dövlət kapital qoyuluşlarını artırmaq və əmtəələrin dövlət tədarükatını genişləndirmək yolu ilə;
- kapital qoyuluşlarının səmərəliliyinin yüksəldilməsi yolu ilə. Keyns sübut edir ki, sonunda istehsal genişlənir və işsizlik azalır və məşğulluq səviyyəsi yüksəlir.

**Ədəbiyyat:**

1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 13 yanvar 1995-ci il, № 952
2. M.C.Atakişiyev, R.N.Nurəliyev, N.H.Abbasov. "İnvestisiya fəaliyyətinin təşkili" Dəsrlik, Bakı. 2012. 256 səh.

## ƏLVERİŞLİ BİZNES MÜHİTİNİN YARADILMASI XÜSUSİYYƏTLƏRİ

*Səfərova Təranə Allahverdi qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Son illər biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar , sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi sahəsində qəbul edilmiş qərarlar,qanunlar, dövlət proqramları ölkədə azad rəqabətə əaslanan sahibkarlığın inkişafı məqsədlərinə xidmət edir.Burada başlıca məqsəd biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafıdır. Hər bir ölkədə sosial iqtisadi inkişafa dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı sənaye müəssisələri yaradılır və işə salınmaqla genişmqyaslı infrastruktur layihələri reallaşdırılır.

Biznes və investisiya mühiti davamlı sürətdə yaxşılaşdırılır . İqtisadiyyatın ayrı-ayrı sektorlarının inkişafının təmin edilməsi məqsədilə yerli və xarici investisiyalar üçün əlverişli şərait yaradılır. Bütün bunlar özəl sektora, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və yaradılan makroiqtisadi sabitlik ölkədə güclü sənaye sektorunun formalaşdırılması, innovatik və yüksək texnologiyaları əsasında rəqabətqabiliyyətli sənaye istehsalı üçün əlverişli şərait yaradır.Əlverişli mühitin mövcudluğu iqtisadiyyatın sahələrinin davamlı inkişafı ixrac qabiliyyətinin ,idxalı